

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

27 fevral 2020-ci il
Cümə axşamı

№ 8 (3473)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİN ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB






1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoyublar.

**Fevralın 25-də Çin Xalq Respublikasının Sədri Si Cinpin yeni tip koronavirusun səbəb olduğu epidemiya ilə əlaqədar başsağlığı məktubuna, habelə Çin hökumətinin bu epidemiyaya qarşı mübarizədə gördüyü tədbirləri yüksək qiymətləndirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb.**

**Məktubda ötən ilin aprelində dövlət başçıları arasında baş tutan görüşün təssüratlarına toxunan Çin lideri ikitərəfli münasibətlərin inkişafına dair tərtib edilən planların reallaşdırılmasından və onların dinamik inkişafındakı müsbət meyllərdən məmnunluğunu ifadə edib. O, Çin-Azərbaycan münasibətlərinin yeni pilləyə yüksəlməsi üçün bundan sonra da ölkəmizin rəhbəri ilə daha sıx əlaqə saxlayacağını bildirib.**

## TÜRKİYƏ PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ



Fevralın 25-də Azərbaycana səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Görüşdən sonra Prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib. Dövlət başçıları iclasda çıxış ediblər.

Həmin gün Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Dövlət başçıları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının səkkizinci iclasının Protokolu"nu imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Türkiyə dövlətinin başçısının şərəfinə ziyafət verilib.

Ziyafətdən sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola salıb.

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 22-də milli bayram – Müstəqillik Günü münasibətilə Estoniya Respublikasının Prezidenti zati-aliləri xanım Kersti Kalyulayda təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı fevralın 22-də milli bayram – Təvəllüd Günü münasibətilə Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya təbrik məktubu göndərib.***

***Ölkəmizin rəhbəri fevralın 22-də milli bayram münasibətilə Bruney-Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha təbrik məktubu göndərib.***

***Fevralın 23-də Azərbaycan Prezidenti İlham Əliyev Vanda baş vermiş zəlzələ nəticəsində insan tələfatı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana başsağlığı teleqramı ünvanlayıb.***

***Fevralın 24-də dövlətimizin başçısı elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında fərman imzalayıb.***

***Fevralın 24-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasında idmanın inkişafında xidmətlərinə görə İqor Anatolyeviç Ponomaryovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı fevralın 24-də Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunlarına və XVI Yay Paralimpiya Oyunlarına hazırlığının və Oyunlarda iştirakının təmin edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri fevralın 24-də Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Gülmirzə oğlu İlyasovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Fevralın 24-də Azərbaycan Prezidenti İlham Əliyev milli bayram münasibətilə Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, qardaş Türkiyənin firavanlığı naminə ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Dövlət başçıları dünən Bakıda keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının əhəmiyyətinə toxunaraq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

## BERLİNDƏ ÜMUMAVROPA QARABAĞ MİTİNQİ KEÇİRİLİB



Almaniya paytaxtındakı Paris meydanında dünyanın 30-a yaxın ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Ümumavropa Qarabağ mitinqi keçirilib.

Aksiyaya Azərbaycan, Almaniya, Niderland, Macarıstan, Polşa, İspaniya, İtaliya, Belçika, İsveç, Latviya, Litva, Estoniya, Çex Respublikası, Avstriya, İsveçrə, Norveç, Finlandiya, Fransa, Rumıniya, Xorvatiya, Böyük Britaniya, Yunanıstan, Moldova, Ukrayna, Gürcüstan, Türkiyə, ABŞ, Kanada və bir sıra başqa ölkələrdə yaşayan soydaşlarımız, eləcə də Azərbaycana dost münasibəti bəsləyən xalqların diasporlarının üzvləri qatılıb.

İştirakçılar "Qarabağ Azərbaycandır!", "Biz terrora yox deyirik!", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış ediblər.

Mitinq zamanı yerli sakinlərə, turistlərə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkiləri əks etdirən broşürlər paylanılıb.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2020-ci il fevral ayının 29-da Şirvan şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# POLİS AKADEMİYASINDA ANA DİLİ GÜNÜ




Polis Akademiyasının "Dil hazırlığı" kafedrasının müəllimi Fərqanə Əliyeva "Heydər Əliyev və dil siyasəti" mövzusunda çıxış edərək ulu öndərimizin Azərbaycan dilinə verdiyi dəyərdən, xalqımızın mənəvi mövcudluğunun əsas sütunlarından biri olan dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizədən danışıb.

**DİN-in Polis Akademiyasında "Beynəlxalq Ana Dili Günü"nə həsr olunmuş dəyirmi masa keçirilib.**



Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev iştirakçılara DİN rəhbərliyinin salamını və təbrikini çatdırıb.

"Hər bir dil ayrılıqda dünya haqqında bilik, dünyanı görmək və anlamaq üçün vasitədir, bu günün qeyd olunmasında məqsəd isə ana dilinin təbliği, inkişafı və öyrənilməsinin bütün formalarını müdafiə etməkdən ibarətdir",- deyən N.Əliyev dövlət atributlarından biri kimi dilimizi sevməyin və qorumağın müqəddəs borclardan biri olduğunu vurğulayıb.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin professoru Buludxan Xəlilov və Bakı Slavyan Universitetinin müəllimi Rəna Əliyeva dilimizin keçdiyi tarixi yola nəzər salıb, onun zənginliyindən, möhtəşəmliyindən söhbət açıblar.

Polis Akademiyasının I kurs kursantları Fərid Qafarov, Rəşad Əkbərov, Turqut Süleymanlı və Məhəmməd Əli Həsənzadə Azərbaycan dilinin tarixi, əlifbası, dünya dilləri arasındakı mövqeyindən bəhs ediblər.

Dəyirmi masada Dövlət Gömrük Komitəsinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin Akademiyalarının, H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Azərbaycan Dillər Universitetinin müəllim və tələbələri də fikir mübadiləsi aparıblar.

*N.Abdullayev,*
*V.Məmmədov*

# XOCALI FACİƏSİNİN QURBANLARI YAD EDİLDİ



**Fevralın 24-də Daxili İşlər Nazirliyində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş Xocalı faciəsi zamanı şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinin iştirakı ilə anım mərasimi keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları işğalçılarla qeyri-bərabər döyüşlərdə qəhrəmancasına həlak olan 17 polis əməkdaşının, soyqırıma məruz qalmış xocalıların, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş bütün həmvətənlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev tədbiri giriş sözü ilə açaraq xalqımızın son iki əsr ərzində erməni millətçiləri tərəfindən dəfələrlə soyqırıma məruz qaldığını, azərbaycanlıların növbəti belə faciə ilə 28 il əvvəl Xocalıda üzləşdiyini bildirib. Nazir müavini yalnız ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial şəkildə yanaşıldığını, məhz onun qətiyyəti sayəsində soydaşlarımıza qarşı qəddarcasına törədilən dəhşətli qətliama obyektiv hüquqi-siyasi qiymət verildiyini diqqətə çatdırıb.

İ.Əliyev vurğulayıb ki, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə bu faciənin bütün dünyada tanınması istiqamətində görülən işlər, eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində mütəmadi şəkildə həyata keçirilən tədbirlər, geniş təbliğat nəticəsində özlərini beynəlxalq ictimaiyyətə məzlum, türklər tərəfindən guya soyqırımına məruz qalmış əzabkeş xalq kimi göstərməyə çalışan erməni millətçilərinin, lobbisinin və havadarlarının bu istiqamətdəki səyləri puç olur, yalan və saxtakarlıq üzərində qurulmuş təbliğatları iflasa uğrayır.

Nazir müavini İ.Əliyev respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun adından qəhrəman şəhərin müdafiəsində şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə bir daha başsağlığı vermiş, onların problemləri və qayğıları ilə maraqlanmış, qaldırılan məsələlərin tezliklə həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.

Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyat yoldaşı Qalina Hacıyeva onlara göstərilən diqqətə, qayğıya, həmçinin əvvəlki görüşlərdə qaldırılan bir çox problemlərin həllinə görə şəhid ailələri adından ölkə və DİN rəhbərliyinə minnətdarlığını ifadə edib.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# UNUTMURUQ, UNUTDURMURUQ...

DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbində Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar keçirilən tədbir şəhidlərin və soyqırımı zamanı amansızcasına qətlə yetirilən soydaşlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.





Tədbiri giriş sözü ilə açan rəisin şəxsi heyətlə iş üzrə köməkçisi, **polis polkovniki Fuad Əliyev** Xocalı soyqırımı barədə geniş məlumat verərək bildirdi ki, tarixi Azərbaycan torpaqlarına havadarlarının köməkliyi ilə yerləşdirilən erməni millətçiləri burada zaman-zaman xalqımıza qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirmiş, yüzminlərlə həmvətənimizi qətlə yetirmişlər. Onların əsassız torpaq iddiaları Qafqazda ağır müharibələrə yol açmış, dinc insanların ölümü ilə nəticələnmişdir.

Daha sonra çıxış edən Məktəbin müəllimi, polis mayoru Aqşin Əlizadə qeyd etdi ki, aradan illər keçsə də Xocalı faciəsi xalqımız tərəfindən unudulmayacaq, onun dünya miqyasında tanınması üçün hər bir Azərbaycan vətəndaşı inamla və inadla mübarizə aparır və bundan sonra da aparacaq.

Tədbirdə o da vurğulandı ki, Xocalı faciəsini törətməklə erməni millətçiləri xalqımızın gözünü qorxutmaq, onun mübarizə əzmini qırmaq istəsələr də buna nail ola bilmədilər.

Bu gün cənubi Qafqazın liderinə çevrilən Azərbaycan güclü orduya, dayanıqlı iqtisadiyyata malikdir və o sərhədləri daxilində ikinci "erməni dövləti"nin yaradılması ilə barışmayacaq, sülh yolu ilə baş tutmasa, ərazi bütövlüyünü silah gücünə bərpa edəcəkdir.

# ŞƏHİD ŞƏHƏRİN SAKİNİ

**Düz 28 ildir ki, kökləndiyim dərdin hər telindən ah-nalə qopur. 28 ildir ki, dərdin qardaşı, qəmin bacısıyam. Bizim anamızı Xocalıda öldürdülər. Başı özünə qarışan Tanrının yadından elə çıxdıq ki, yadına düşəndə cansız bədənlərin üstündə mələklərin hönkürtüsü eşidilirdi...**

Xocalıdan sonra fevral ayı insanların gözündən düşdü. Doğum günü bu aya təsadüf edənlər ömürlərindən 1 ilin üstündən sükutla keçdilər...

Yenə də sükut içindəyəm. Amma yazmaq istəyirəm. Necə başlayacağımı bilmirəm. Bəzən ürəyimdə yazını yazıb bitirirəm də... Göz yaşlarımla... Hələ də gözümün önündən getmir, elə bil ki, dünən olub...



1992-ci il fevralın əvvəllərində Malıbəyli və Quşçular kəndlərinə hücum edən düşmən daha da azğınlaşdı. Fevralın 16-dan 17-nə keçən gecə Qaradağlı yandırıldı. "Ölümün qapısı" bu dəfə xocalıların üzünə "açılmışdı"...

Fevralın 25-dən 26-na keçən gecə Xocalı işğal olunub, yerlə-yeksan edildi və erməni millətçiləri dünyada misli-bərabəri görünməyən vəhşiliklə azərbaycanlılara qarşı soyqırımı törətdilər.

Həmin gecə Xocalıda yalnız ölülər qaldı...

Şəhidlər göylərdən və küskün başdaşlarından boylanıb susarlar. Şəhidlər isə o günü xatırladıqca yüz yol ölüb, dirilərlər...

O gecənin şəhidlərindən, o şəhərin sakinlərindəndir **polis mayoru Rəhman İsmayılov.**

Ürəyimlə əlbəyaxa olduqdan sonra "Mənə Xocalıdan danışın", - dedim. Susdu və dərindən ah çəkdi: "21 yaşımdan Vətənin keşiyindəyəm. 1988-ci ildən 1992-ci ilə qədər xocalılar düşmənə dirəniş göstərdi. Silahımız yox idi. Dəhrə, balta və yaba ilə düşmənin qarşısına çıxırdıq. Bir qarnı tox, bir qarnı ac mübarizə aparırdıq.

Düşmənin məqsədi Qarabağdakı yeganə hava limanı olan Xocalı aeroportunu tutmaq idi. Xocalı aeroportunu mühafizə edən polis bölməsinin yaranması və Əlif Hacıyevin rəis təyin edilməsi onların ümidlərini puç etmişdi.

O, Ermənistandan gələn təyyarələrə nəzarət edir, onların uçuşlarını məhdudlaşdırır, Xocalının müdafiəsi üçün var qüvvəsi ilə çalışırdı.

Xocalını müdafiə məqsədi ilə 9 post qurulmuşdu. Hər postda 20 nəfər keşik çəksək də 12 avtomatımız vardı. Qalanlar da yabayla, daş parçasıyla keşikdə dururdu.

Hadisədən bir gün əvvəl yas mərasimindəydik. Axşamüstü qulağıma qəribə səslər gəldi. Diqqətlə qulaq asdıqdan sonra bildim ki, bu tankların səsidi. Heç ağlımıza gəlməzdi ki, rusların 366-cı alayı camaata divan tutar. Başımı qaldırıb yuxarı baxanda gördüm ki, göyün üzü qırmızı rəngdədir. Şaxtalı qış gecəsində elə bil qar üstünə qan yağırdı. Qaladərəsi kəndini yandırmışdılar. Fevralın 25-i axşam Xocalı toplardan və ağır artilleriyadan atəşə tutuldu. Canını qurtarmaq üçün çöllərə, meşələrə üz tutan xocalıları erməni faşistləri güllələyir, körpə uşaq, yaşlı demədən gözlərini çıxarır, başını kəsir, dərisini soyur, hamilə qadınların qarınlarını deşir, döşlərini kəsir, övladlarını anaların gözləri önündə işgəncələrlə öldürürdülər. Küçələr, yollar insan meyiti ilə dolmuşdu.

Qarqar çayından keçərək Ağdama doğru gedirdik: qarın üstündə, ac-susuz, taqətsiz...

Yaxın qonşularım, qohumlarım həlak oldu... **O gecə Əlif Hacıyev, qardaşı Süleyman və 16 nəfər Xocalı Polis Şöbəsinin əməkdaşı şəhidlik zirvəsinə ucaldı".**



...Polis mayoru R.İsmayılovun 53 yaşı var. Bəlkə də Xocalıda yağan sonuncu qardı həmkarımızın saçlarındakı. Xocalıda yaşadığı Vətənli günləri üçün ömrünün qalan hissəsini qurban verməyə hazırdır.

Və dünyada hər şeyin, dərdin də, əzabın da bir sonu var, elə bizim Vətən nisgilimizin də...

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Dost ölkədən ərazi bütövlüyümüzü dəstəkləyən sənəd

**Pakistanın Xeybər Puxtunxva əyalətinin Assambleyası tərəfindən Azərbaycanın ərazi bütövlüyünə hörməti təsdiq edən qətnamə qəbul olunub.**

Sənəddə Xeybər Puxtunxva əyalətinin Assambleyasının Pakistan və Azərbaycan arasındakı qarşılıqlı hörmət, etimad və anlaşma prinsiplərinə əsaslanan strateji tərəfdaşlığa yüksək dəyər verməsi, iki ölkə arasında bölüşülən mədəni dəyərlər, regional və qlobal məsələlərə ortaq yanaşma və beynəlxalq müstəvidə yaxın əməkdaşlığın mövcudluğu vurğulanır.

Assambleya Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal olunmasını, 1992-ci ilin 26 fevral tarixində Xocalı şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhaliyə qarşı törədilən soyqırımı, İƏT və BMT qətnamələrinə əhəmiyyət verilməməsini pisləyir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Azərbaycan Respublikasının səylərini dəstəkləyir.

Qeyd edək ki, Pakistan Senatının Xarici Əlaqələr Komitəsi 2012-ci ildə, Pakistan Milli Assambleyasının Xarici İşlər üzrə Daimi Komitəsi tərəfindən 2017-ci ildə Xocalı soyqırımını tanıyan, həmçinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək, Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edən qətnamələr qəbul edilib.

# FACİƏ QURBANLARI ANILIB

**Gəncə Şəhər Baş Polis İdarəsində də Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilib, onların əziz xatirəsi yad edilib.**

Baş İdarə rəisi, polis polkovniki Əkbər İsmayılov bu faciənin erməni millətçilərinin və havadarlarının azərbaycanlılara qarşı XIX-XX əsrlərdə həyata keçirdikləri etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğunu bildirib, zirehli texnika vasitəsilə dinc əhalinin məhv edilməsini bütün beynəlxalq hüquq normalarının pozulması kimi dəyərləndirib.





Tarix elmləri üzrə fəlsəfə doktoru, əməkdar müəllim Asif Cavadov XX əsrin sonunda ermənilərin Xocalıda törətdiklərini bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən, onun yaddaşlardan heç vaxt silinməyən Xatın, Xolokost, Sonqmi, Ruanda və Srebrenitsa kimi dəhşətli faciələrdən fərqlənmədiyini deyib.

Xocalı şəhər sakini, BPİ-nin Qeydiyyat məsələləri şöbəsinin rəisi, polis polkovnik-leytenantı Təranə Şahmuradova isə o günləri belə xatırlayıb: "Faciədən sonra yaşanan müsibətli günlərin mən də şahidiyəm. Ağdam şəhərində məscidə yığılan, tanınmaz halda olan insan meyitləri, yaralılar, ayaqları, əlləri donmuş körpələr hələ də gözlərimin önündədi. Həmin gün sanki dünyanın sonu idi. O gündən sonra heç kimsənin ümidi yox idi ki, həyat davam edəcək. 1992-ci ilin mayında böyük qardaşım, polis leytenantı Natiq şəhid oldu, kiçik qardaşım Namiq itkin düşdü, həmin ilin noyabr ayında isə həyat yoldaşım, polis nəfəri Tahir Zeynalov Ağdərə bölgəsində şəhidlik zirvəsinə ucaldı. İtirdiyim doğmalarımdan mənə Mərdlik, Cəsarət və Vətən sevgisi yadigar qaldı"...

Sonda BPİ-nin Veteranlar Şurasının sədri, istefada olan polis polkovnik-leytenantı Məhəmməd Hümbətov və digər çıxış edənlər, soyqırım həqiqətlərinin dünyaya çatdırılmasında möhtərəm Prezidentimiz İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse prezidenti Leyla Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdilər.

*Eşqin Qasımov,*
*polis baş leytenantı*

# QAPIMIZI DÖYƏN BƏLA

"Bu bəlanın qarşısını almaq çox çətindir. Daha sərt addımlar atmaqla, narkotacirləri tutmaqla işimizi bitmiş hesab etmirik. Maarifləndirmə tədbirlərini keçirməklə sizləri də onun necə təhlükəli bir bəla olmasından xəbərdar edirik ki, həyatınız qaralmasın, gələcəyiniz məhv olmasın".



**Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Nəriman İmanovun** 16 nömrəli məktəbdə keçirilən tədbirdə dediyi bu fikirlər ətrafında aparılan müzakirələrdə ən çox şagirdlərin və valideynlərin aktivliyi diqqət çəkdi.



Tədbir iştirakçıları narkotikin toruna düşməmək üçün gənclərə siqaretdən uzaq durmağı, valideynlərə isə övladlarına nəzarəti gücləndirməyi, onlarla dost olmağın vacibliyini vurğuladılar.

Sumqayıt ŞPİ-nin Veteranlar Şurasının sədri Rostevan Əliyev və digərləri çıxışlarında bədən tərbiyəsinin Vətənimizdə böyük bir hərəkat halını aldığını, gənclərin paytaxtda və yerlərdə idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün yaradılan şəraitin qələbələrə yol açdığını və beynəlxalq turnirlərdə qızıl medallarımızın sayının artdığını dövlət başçımızın apardığı siyasətin uğuru kimi qiymətləndirdilər.

Narkotikin fəsadları ilə bağlı videoçarx nümayiş olunduqdan sonra şagirdlərin sualları tədbiri daha yaddaqalan etdi.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# TORONTODA FLEŞMOB KEÇİRİLİB

Kanadada yaşayan soydaşlarımız erməni millətinin təcavüzkar simasını göstərmək üçün Toronto şəhərinin mərkəzi küçələrindən birində Xocalı soyqırımı ilə bağlı fleşmob keçirib. Tədbir azərbaycanlıların Kanadada Multikultural Mərkəzinin təşəbbüsü ilə baş tutub.

Tədbirdə Azərbaycan xalq mahnısı "Sarı gəlin" ifa olunub.



# SAĞLAM HƏYAT-SAĞLAM GƏLƏCƏKDİR

**Quba, Zərdab, Mingəçevir, Xaçmaz, Ağdaş və Balakən Şəhər-Rayon Polis Şöbələrinin təşkilatçılığı ilə rayonların orta məktəblərinin yuxarı sinif şagirdləri ilə "Narkotiklər haqqında nə bilirik?", "Radikal və separatçı dini təriqətlərin fəsadları və profilaktikası", "Erkən nikahlar, onun fəsadları və qarşısının alınması yolları" və "Sosial şəbəkələrin yeniyetmələrə psixoloji təsiri" mövzularında maarifləndirici görüşlər keçirilib.** Tədbirlərdə Rayon İcra Hakimiyyətlərinin, Təhsil şöbələrinin əməkdaşları, KİV, ictimaiyyət nümayəndələri və məktəblərin pedaqoji heyətləri iştirak ediblər.



Görüşlərdə sağlam, vətənpərvər gəncliyin formalaşmasının möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dövlət siyasətinin əsas prioritetlərindən olduğu bildirilib. Məktəblilərə narkomaniyanın acı nəticələri barədə geniş məlumat verən asayiş keşikçiləri, bu maddələrin istifadəçisi olan şəxslərin həyatlarını bilə-bilə məhv etdiklərini, sağlamlıqlarını təhlükəyə atdıqlarını qeyd edib, cinayətkarlığın artmasına təkan verən narkomaniyaya qarşı birgə mübarizənin əhəmiyyətindən danışıblar.

Qeyd olunub ki, sərhədlər aşan "ağ ölüm"ün yayılmasının qarşısının alınmasında, bu maddələrin satışını həyata keçirən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunmasında daxili işlər orqanları qətiyyətli tədbirlər görür. İştirakçıların diqqətinə çatdırılıb ki, ötən il qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanuni kultivasiya edilən 127 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib. Çıxışlar zamanı qapımızı döyən bəla ilə mübarizədə hər kəsin, ziyalıların, valideynlərin də fəal olmaları və aparılan maarifləndirmə işlərinin vacibliyi diqqətə çatdırılıb.

Dini radikalizm də tədbirlərin müzakirə mövzusu olub. Dövlət-din münasibətlərinin qanunvericiliklə tənzimləndiyi, ölkəmizdə dini əqidəsinə görə ayrı-seçkiliyə yol verilmədiyi, multikultural dəyərlərə hörmətlə yanaşıldığı vurğulanıb. Çıxış edənlər gənclərə qeyri-ənənəvi dini cərəyanların təsirinə düşməkdən uzaq durmaların, milli-mənəvi və dini dəyərlərimizin qorunmasında, eləcə də vətənpərvərlik prinsiplərinin təbliğində cəmiyyətdə daha aktiv mövqe tutmalarını tövsiyə ediblər.

Tədbirlərdə erkən nikahların da cəmiyyətdə doğurduğu sosial problemlərdən, fizioloji fəsadlarından və gənclərin həyatında ağrılı bir iz kimi qaldığından bəhs edilib.

Narkomaniyanın insan həyatını necə məhv etməsi barədə DİN tərəfindən hazırlanan filmlər iştirakçıların marağına səbəb olub, polis əməkdaşları məktəbliləri maraqlandıran sualları cavablandırıblar.

# SOYQIRIMI TANIYAN ÖLKƏLƏR VƏ TƏŞKİLATLAR

Azərbaycan Respublikası.

Meksika Senatı 02.02.2012-ci il tarixində Xocalı faciəsini soyqırım adlandırıb.

Pakistan İslam Respublikası soyqırımı pisləyən qətnamə qəbul edib.

Kolumbiya Parlamenti 24.04.2012-ci il tarixində Xocalını soyqırım kimi tanıyıb.

Çexiya Parlamenti 19.02.2013-cü il tarixində Xocalı soyqırımını rəsmən tanıyıb.

Bosniya və Herseqovina parlamenti 26.02.2013-cü il tarixində Xocalı soyqırımını rəsmən tanıyıb.

Peru və Honduras hökumətləri də Xocalı faciəsini tanıyıblar.

Cibuti Respublikasının Milli Assambleyası Xocalı soyqırımına dair qətnamə qəbul edib.

Massaçusets ştatının nümayəndələr palatası 25.02.2010-cu il fevralın 25-də Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib.

ABŞ-ın Texas, Nyu-Cersi, Corciya, Men, Nyu-Meksika, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, Qərbi Virciniya, Konnektikut, Florida, İndiana, Yuta, Nebraska, Havay, Montana, Aydaho və Arizona ştatları Xocalı faciəsini tanıyıblar.

İslam Əməkdaşlıq Təşkilatı da xalqımıza qarşı törədilən bu faciəni rəsmən tanıyıb.

## GÜRCÜSTANDAN QAÇDI, BAKIDA TUTULDU

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində bir neçə əməliyyat tədbiri həyata keçirilib.**

Baş İdarəyə Elcan adlı şəxsin evində qanunsuz olaraq odlu silah-sursat gizlətməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində Gürcüstan vətəndaşı Elcan Cəfərov paytaxtın Xətai rayonu ərazisində tutulub. Onun kirayədə yaşadığı mənzilə baxış zamanı oradan 1 ədəd nömrəsi silinmiş "Makarov" markalı tapança, 1ədəd "F-1" qumbarası, 32 ədəd partron, habelə 8,895 qram heroin və 4,403 qram psixotrop maddə hesab edilən metamfetamin aşkar olunaraq götürülüb. Araşdırma zamanı E.Cəfərovun əvvəllər dəfələrlə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum edildiyi məlum olub. Beynəlxalq axtarışda olan E.Cəfərov Gürcüstan Respublikasında ağır cinayət törətdiyi üçün Bakıda gizlənirmiş.

## KEÇMİŞ MƏHKUMDAN SİLAH GÖTÜRÜLDÜ

**BMCMİ-nin daha bir uğurlu tədbiri zamanı Balakən rayon sakini, əvvəllər məhkum olunmuş Əli Muğumov Mehdiabad qəsəbəsində tutulub.**

Onun kirayədə yaşadığı mənzilə baxış zamanı 1 ədəd "Makarov" markalı tapança, həmin silaha məxsus 1 ədəd sandıqça və 16 ədəd patron aşkar edilərək götürülüb.



Ə.Muğumov barəsində Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

## DƏLƏDUZLUQ EDƏN ŞƏXS SAXLANILDI

**Beyləqan Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində vətəndaşları etibarından sui-istifadə edərək onlara qarşı dələduzluq etməkdə şübhəli bilinən, əvvəllər də həmin əmələ görə məhkum edilmiş rayonun Əhmədli kənd sakini Rauf Süleymanov saxlanılıb.**

İstintaq zamanı R.Süleymanovun Beyləqan rayonu ilə yanaşı Bakı, Gəncə və Ağcabədi şəhər və rayonlarında yaşayan vətəndaşları işlə təmin etmək, xəstəliklərə görə təqaüd və sosial yardım düzəltmək, həmçinin Qarabağ əlillərinə veriləcək ev, avtomobil növbəsində adlarını irəli çəkdirəcəyinə inandırmaqla onlara, ümumilkdə, 60 min manat məbləğində ziyan vurduğu müəyyən edilib.

Onun digər şəhər və rayonlarda da analoji cinayətlər törətdiyi də istisna edilmir.

# O DA BÖYÜYƏNDƏ POLİS OLACAQ

Zaqatala rayon sakini Hacımurad adlı azyaşlının ağır xəstəlikdən əziyyət çəkməsi və müalicəsini davam etdirməsi üçün maddi cəhətdən köməyə ehtiyaclarının olması barədə anası bəzi sosial şəbəkə səhifələrində müraciət paylaşıb.



Göyəm kənd sakini Hacımurada dəstək olmaq üçün Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları təşəbbüs göstəriblər. RPŞ-nin Dövlət Yol Polisi bölməsinin rəisi, polis kapitanı Elgün Əliyev və bölmənin şəxsi heyəti həmin ailəyə evlərində baş çəkiblər. Polis əməkdaşları onun səhhəti ilə maraqlanıb, könüllülük əsasında toplanan pul vəsaitini və müxtəlif ərzaq məhsullarını onlara təqdim ediblər. Övladlarının müalicəsi üçün göstərilən dəstəyə görə, Hacımuradın valideynləri Azərbaycan Polisinə minnətdarlıqlarını bildiriblər.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# İDMANÇILARIMIZ UĞUR QAZANDI

**Fevralın 10-dan 16-dək Roma şəhərində yunan-Roma və sərbəst güləş üzrə Avropa çempionatı keçirilib.**

Gərgin mübarizə şəraitində keçən yarışda Avropanın ən güclü atletləri gücünü sınayıb. Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təmsilçilərindən yunan-Roma güləşində Eldəniz Əzizli (55 kq) və sərbəst güləş üzrə gənclər arasında Daxili Qoşunların əsgəri Əli Rəhimzadə (65 kq) turnirin bürünc medallarını qazanıblar.



İdmançılarımız çempionatda uğurlu çıxış edərək ümumi komanda hesabında 116 xalla 2-ci yeri tutublar. Gürcüstan yığması 95 xalla 3-cü yerin sahibi olub. Rusiya yığması isə 186 xalla çempionluq kürsüsündə yerini möhkəmləndirib.

DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova idmançılarımızla görüşərək onları təbrik edib və gələcəkdə daha çox qələbələrə imza atmağı arzulayıb.

*****

Yeri gəlmişkən, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirməsi, iki qat Avropa kubokunun sahibi, ölkə çempionu Nahid İsmayılov növbəti titulunu qazanıb. İdmançımız İspaniyanın Fuengirola şəhərində təşkil olunan yeniyetmələr arasında cüdo üzrə Dünya Kubokunda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, 73 kiloqram çəki dərəcəsində 44 idmançı arasında ustalıq səviyyəsinə və texniki cəhətdən daha hazırlıqlı olmasına görə də fərqlənib. İdmançımız bu turnirə əməkdar məşqçi-müəllim Mais Məmmədovun rəhbərliyi altında qatılıb. Qeyd edək ki, sözügedən yarışda 25 ölkədən 297 idmançı mübarizə aparıb.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, NAZİRLİYİN MÜVAFİQ QURUMLARINDA VAKANT OLAN SIRAVİ VƏ KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər **mia.gov.az./?/az/content/29996/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

***Daxili İşlər Nazirliyi***

# GƏNCLƏRLƏ BİR ARADA



Bu günlərdə Ağdaş RPŞ Veteranlar Şurasının üzvlərinin iştirakı ilə rayon Peşə məktəbində "Gənc kadrlarla hamilik işi-peşə hazırlığı" mövzusunda maarifləndirici tədbir keçirilib.



Çıxış edənlər gənclərin peşə vərdişlərinin artırılması istiqamətində dövlətin dəstəyindən məmnunluqlarını ifadə edib, belə tədbirlərin keçirilməsinin onların hərbi-vətənpərvərlik ruhunun tərbiyəsində və peşəkarlığının artırılmasında mühüm rol oynadığını vurğulayıblar.

Şuranın sədri Elman Qurbanov ölkəmizdə həyata keçirilən gənclər siyasəti nəticəsində sabahımızın qurucularının hərtərəfli inkişafı, imkanlarını reallaşdırmaları üçün yaradılan şəraitdən danışıb, gənclərin isə bu etimadı doğruldacaqlarına əminliyini ifadə edib.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# POLİS YENƏ SEVİNDİRDİ

Bu günlərdə metronun Xalqlar Dostluğu stansiyasında oturacağın üzərində olan polietilen paket orada xidmət aparan polis əməkdaşının diqqətini çəkib. Polis serjantı Rəhman Ağayev onun sahibsiz olduğunu görüb və aidiyyatı üzrə təhvil verib.

Həmin gün vətəndaş X.Nəzərova metroda üzərində nömrəsi olan gömrük karqo paketini unutması barədə Metropolitendə Polis Şöbəsinə müraciət edib. O, Şöbəyə dəvət olunub, polis əməkdaşları qeyd olunan əşyanı sahibinə qaytarıblar.

*****

Metropolitendə Polis Şöbəsinə dəvət edilən digər vətəndaş – M.Məhərrəmovaya polis əməkdaşları itirdiyi pulu təhvil veriblər.







Qeyd edək ki, o, metronun Xalqlar Dostluğu stansiyasında 200 manatını itirmişdi. Stansiyanın girişində pulu tapan polis əməkdaşları onu aidiyyatı üzrə təhvil verdikdən sonra məlum olub ki, həmin qadın Şöbəyə pulunu itirməsi ilə bağlı müraciət edib.

Hər iki vətəndaş belə humanistliyə və nəcib əmələ görə polis əməkdaşlarına təşəkkürlərini bildiriblər.

Yeri gəlmişkən, metroda xidmət aparan həmkarlarımız tərəfindən 2016-cı ildə 134, 2017-ci ildə 166, 2018-ci ildə 205, 2019-cu ildə isə 618 əşya tapılaraq sahiblərinə qaytarılıb.

*Natiq Cavadov,*
*polis mayoru*

# "AĞ ÖLÜM" SƏRHƏD TANIMIR



Xətai Rayon Polis İdarəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərin saxlanılması istiqamətində tədbir keçiriblər. Əməliyyat zamanı əvvəlcə paytaxt sakini İbrahim Əliyev tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman 13 qram heroin, 5 qram psixotrop maddə metamfetamin aşkar olunaraq götürülüb. İ.Əliyev ifadəsində pulu ödəniş terminalı vasitəsilə Biləsuvar rayon sakini İmamverdi Hüseynovun bank kartına yüklədikdən sonra narkotik vasitəni onun mobil telefonuna "google map" proqramı vasitəsi ilə göndərilən ünvandan götürdüyünü bildirib.

Keçirilən əməliyyat nəticəsində tutularaq istintaqa təqdim edilən İmamverdi Hüseynov ifadəsində narkotik vasitələrin ölkə ərazisində satışının şəxsiyyəti istintaqa məlum olmayan Şirzad adlı İran vətəndaşının təşkil etdiyini və bu yolla əldə edilən pulların isə onun plastik kartlarında toplandığını bildirib. İ.Hüseynovun üzərinə və idarə etdiyi avtomobilə baxış zamanı təmiz çəkisi 525 qram heroin, 130,503 qram tiryək, yaşadığı evdən isə narkotik vasitələrin satışında istifadə etdiyi müxtəlif şəxslərə məxsus plastik kartlar, narkotik vasitələrin dövriyyəsinin hesabatının aparıldığı qeydiyyat kitabçaları aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*Anar Qafarov,*
*polis baş leytenantı*

# İNCİLƏR

Müdrik fikirlər və kəlamlar bəşər tarixinin müxtəlif dövrlərində yaşamış xalqların dilində işlənə-işlənə parlaq bir inciyə dönmüş, nəsildən-nəslə keçərək təravətini itirmədən bizə gəlib çatmışdır. Aqillər deyir ki...

*Tarlada izi olmayanın süfrədə üzü olmaz.

**Türk atalar sözü.**

*Vaxtdan pis istifadə edən adamlar həmişə onun əsatındən şikayətlənirlər.

**J.D.Labruyer.**

*Əgər asudəlik istəyirsənsə, vaxtını hədər yerə itirmə.

**A.P.Çexov**

*Bu günün işini sabaha qoyma, günortadan sonra görəcəyin işi indi gör! Ölüm həyatda nələri etdiyinə və nələri edə biləcəyinə fərq qoymur.

**Qədim şərq aforizmi.**

*Tələbə müəlliminə bir nümunə kimi deyil, bir rəqib kimi baxmalıdır ki, öz müəllimini ötüb keçə bilsin.

**V.Q.Belinski**

*Xoşbəxtlik çox zəhmət çəkənə qismət olur.

**Leonardo da Vinçi**

*Müharibədə atılan hər güllə bir ana ürəyinə dəyir.

**Q.Quliyev**

# "SEVGİ" GÖZÜNÜ "KOR" ETDİ

"Əsli və Kərəm", "Leyli və Məcnun", "Aşıq Qərib" dastanlarında sevənlərin nələr çəkdiyini, hansı məşəqqətlərə dözdüyünü bilirik. Ancaq dövr, zaman dəyişdikcə "köhnə dünyanın təzə sevgiləri" sevənlərin qəniminə çevrilib. Daha doğrusu, sevgi adlı munis duyğuların "ovuna çıxanlar" asan "yem" tapanda onların gözünü sevgi ilə örtməyə, "ürək verdiklərini" inandırmağa çalışırlar. Elə bu yazının da qəhrəmanının gözünü sevgi "kor" edib...



Paytaxtın Nizami rayon sakini Zəfər Yunisov "102 Xidməti-Zəng Mərkəzi"nə evindən 16 min ABŞ dolları və 10 min manat oğurlandığı barədə məlumat verib. Nizami RPİ-nin və 24-cü Polis Şöbəsinin əməkdaşlarından ibarət əməliyyat-istintaq qrupu hadisə yerinin müayinəsini həyata keçirib. Giriş qapısını açar seçmə yolu ilə açaraq mənzilə daxil olunduğu müəyyən edilib. Ev sahibi ilə söhbətləşən zaman şübhələr əsasən Z.Yunisovun tələbə oğluna yönəlsə də evin ikinci övladı (şərti adı) Nazlının təlaşı asayiş keşikçilərinin diqqətindən yayınmayıb. Onu sorğu-suala çəkəndə kələfin ucu açılıb. Məlum olub ki, aptekdə işləyən Nazlı dərman paylayan Əfqanla il yarımdır ki, sevgilidirlər. O, çətin durumda olan sevgilisinə kömək etmək qərarına gəlib. Əfqanın dərman şirkətinə olan "borcunu bağlayandan" sonra evdən götürdüyü pulun 4 min ABŞ dollarına da ona maşın alıb.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## Fevral ayının 19-dan 25-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 222 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 67 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 268, o cümlədən borclu şəxs qismində axtarışda olan 168 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 145 fakt müəyyən edilmişdir.

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.954

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik